# ALLAHIN

## GÖZƏL ADLARININ

## MÜXTƏSƏR İZAHI

# Müqəddimə

Rəhmli və Mərhəmətli Allahın adı ilə! Həmd olsun aləmlərin Rəbbi olan Allaha, Allahın salamı və xeyir-duası peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə olsun!

Pak və Uca olan Allah Qurani Kərimdə buyurur:

“Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsi ilə dua edin və Onun adları barəsində haqdan sapanları tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar.” Əraf 7:180

Ad və sifətlər məsələsi, şəriətin ən mühüm məsələlərindən biridir. Çünki bu adları öyrənmək, Pak və Uca olan Allahı insana tanıtdırır. Bir elmin şərəfi o elmin bağlı olduğu məsələnin şərəfi ilə bağlıdır. Yəni, Pak və Uca olan Allahın adları Allahın Özü ilə bağlı olan elmdirsə, bu baxımdan ən şərəfli elmlərdən sayılır.

Allahın əmr etdiyi ən mühüm məsələlərdən biri də, yuxarıdakı ayədə bildirildiyi kimi bu adlarla Onu çağırmağımız, Ona dua etməyimizdir.

Pak və Uca olan Allah Qurani Kərimin İsra surəsində belə buyurur:

“De: 'İstər Allah deyib çağırın, istərsə də ər-Rəhman deyin. Necə çağırsanız da, hər halda ən gözəl adlar Ona məxsusdur'.” İsra 17:110

# Müqəddimə (davamı)

Həmçinin, peyğəmbərin (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) hədislərinin birində belə buyurulur:

Əbu Hureyra (Allah ondan razı olsun) Allahın Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə söylədiyini rəvayət edir: "Allahın doxsan doqquz, yüzdən bir əksik, adı var. Kim bunları sayarsa cənnətə daxil olar". Buxari (2736), Muslim (2677)

Bu hədisdə "kim bunları sayarsa", yəni kim Allahı adları ilə çağırarsa dedikdə, aşağıdakı mənalar ifadə olunur:

1. Pak və Uca olan Allahın adlarının mənasını öyrənmək
2. O adlara bağlı olan sifətlərin mənasını öyrənmək
3. O sifətlər də fellərlə (əməllərlə) bağlı olduğu üçün o felləri öz həyatında hiss etməyə çalışmaq. Məsələn, Pak və Uca olan Allahın "əl-Aliim" (Bilən) adı var ki, insan daim Allahın bütün məsələri bilməsini hiss etməli və bunu öz həyatında tətbiq etməlidir.
4. İnsan bu adlarla Pak və Uca olan Allahı çağırmaqla Ona ibadət etməlidir.

Bu adlarla Allahı çağırmaq şəriətlə icazəli təvəssül növlərindəndir.

Allahı, Ondan istənilən məsələyə müvafiq adla çağırmaq duanın ədəblərindən və sünnədəndir.

# Müqəddimə (davamı)

Bu ədəblərə riayət etmək duanın qəbul olunmasının səbəblərindəndir ki, bu adlarla dua edənin duasının qəbul olunması barədə xəbərlər səhih hədislərdə varid olmuşdur.

Quran və sünnəyə nəzər saldıqda bütün peyğəmbərlərin dua edərkən bu ədəbə riayət etməsi müşahidə olunur. Məsələn, onlar bağışlanma diləyərkən "əl-Ğafuur", "ət-Təvvaab", mərhəmət diləyərkən "ər-Rahiim", "ər-Rauuf", duaya icabət istəyərkən "əs-Səmii'" kimi adlarla çağırmışlar ki, belə misallar saymaqla qurtarmaz.

Həmçinin, bu adların düzgün tələffüzünü ərəbcə öyrənmək vacibdir. Buna görə də, ərəb dilində oxumağı öyrənməyi hər bir müsəlmana tövsiyə edirik.

Ərəbcə oxumağı bilməyən qardaş və bacılarımıza gəlincə, qeyd edək ki, (ii) və ya (aa) kimi cüt hərflər, həmin səsin uzadılaraq tələffüz edilməsini tələb edir.

(') Apostrof işrəsi isə, ərəbcə (ع-ayn) səsini əvəz edir.

Sonda, həmd olsun aləmlərin Rəbbi olan Allaha, Allahın salamı və salavatı olsun Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə.

Hazırladı: Asim Məmmədov və Sabir Məmmədov
Əlaqə: sabir.mammadov.m@gmail.com




# Pak və Uca olan

# Allah

**Allah adı ibadətə layiq olan ilah mənasına dəlalət edən bir addır. Bütün yaratdıqları Ona sevgi, təzim və mütiliklə ibadət edir, ehtiyac və müsibət anında Ona dönürlər. Əslində, bu ad Allahın bütün gözəl adlarının hamısını özündə ehtiva edir.**

## 1. Allah (اللهُ)

**Bu, özündə bütün adların və sifətlərin mənasını əhatə edən bir addır. Adların mənası, isnad olaraq Allah adına qayıdır. Allahdan başqa heç kim ibadəti haqq etmir (layiq deyil).**

Həşr 59:22, Əraf 7:54

## 2. ər-Rahməən (الرَّحْمَانُ)

**Bu ad, Allahın rəhmətinin genişliyinə və bunun bütün məxluqatını əhatə etməsinə dəlalət edən bir addır. Bu ancaq Allaha xas olan bir addır ki, bu adın başqasına verilməsi icazəli deyildir.**

Surələrin başlanğıcı, Bəqərə 2:37/163

## 3. ər-Rahiim (الرَّحِيمُ)

**Bu ad, Allahın qullarına geniş rəhmət sahibi olmasını bildirən bir addır. Möminlər, muhsinlər və rəhmlilər bu rəhmətə daha layiqdirlər.**

Surələrin başlanğıcı, Bəqərə 2:37/163

## 4. ər-Rauuf (الرَّؤُوفُ)

**Ər-Rauf, şəfqəti kamil olandır. Bu şəfqət rəhmətin son dərəcəsidir. Kim Allahın qullarına qarşı şəfqətli olarsa, Allah da ona şəfqətli olar.**

Tövbə 9:117

## 5. əl-Ğaniy (الْغَنِيُّ)

Yaratdıqlarından heç birinə ehtiyac duymayandır. Bu, Allahın bu sifətdə kamil olmasına görədir. Bütün məxluqat Ona möhtacdır (fəqirdir).

Fatir 35:15

## 6. əl-Kəriim (الْكَرِيمُ)

Bu ad, Allahın insanlara verdiyi xeyirin çoxluğuna, faydanın əzəmətinə və nemətin genişliyinə işarət edir. O Kərimdir və Kərim olmağı (ikram etməyi) sevir.

Nəml 27:40

## 7. əl-Əkram (الْأَكْرَمُ)

O, ikram etməkdə və lütfdə bütün kərimlərdən ən fəzilətlisidir. Bu məsələdə Onun heç bir tayı-bərabəri yoxdur. Çünki bütün xeyirlər Onun iki əlindədir. Bütün xeyirlərin hamısı (cins olaraq) Pak və Uca olan Allah tərəfindən və Onun lütfündəndir.

Ələq 96:3

## 8. əl-Vahhəəb (الْوَهَّابُ)

Lütf və ihsan olaraq yaratdıqlarına qarşı bəxşi çox olandır.

Ali İmran 3:8, Sad 38:9/35

## 9. əl-Cəvaad (الْجَوَادُ)

**Hər bir yaratdığına çoxluca əta və lütf edəndir.**

Sunən Tirmizi 2495, Sunən İbni Macə 4257, Əhməd 5/154 və Beyhəqi.

## 10. əl-Vaasi’ (الْوَاسِعُ)

**Bu ad, Onun əzəmətinin, elminin, rəhmətinin və digər kamil sifətlərinin genişliyinə işarət edir.**

Nisə 4:130, Bəqərə 2:115

## 11. əl-Məlik (الْمَلِكُ)

**Göylərin və yerin və onların arasında olanların Sahibidir. O, aləmlərdə olan hər şeyi Öz istəyi və hikməti ilə idarə edəndir.**

Həşr 59:23, Ta ha 20:114

## 12. əl-Məliik (الْمَلِيكُ)

**Bu ad, Pak və Uca olan Allahın mülkünün əzəmətinə dəlalət edir. Həmçinin, bu ad Məlik adından daha bəlağətli (geniş və güclü) mənaya dəlalət edir.**

Qamər 54:55

## 13. əl-Qudduus (الْقُدُّوسُ)

Bütün hallarda, bütün nöqsan və eyiblərdən uzaq olandır (münəzzəhdır). Bu ona görədir ki, Pak və Uca olan Allah mütləq kamillik sifətlərində təkdir.

Həşr 59:23, Cumə 62:1

## 14. əs-Sələəm (السَّلاَمُ)

O, zatında, sifətlərində, adlarında və fellərində bütün nöqsan və eyiblərdən salamat (səlim) olandır. Dünya və Axirətdə olan bütün salamatlıq Pak və Uca olan Allah tərəfindən və Onun lütfündəndir.

Həşr 59:23

## 15. əl-Mumin (الْمُؤْمِنُ)

O, öz şahidliyi ilə, peyğəmbərlərin və onların davamçılarının sadiq olmalarını təsdiqləyəndir (doğrulayandır). Bunu, onların doğruluğu üçün (sadiqliyinə) qoyduğu dəlillər vasitəsi ilə edir. O, Dünya və Axirətdə olan bütün əmin-amanlığı bəxş edəndir. O, həmçinin, iman gətirmiş qullarını, zülm etmək, əzab vermək, Qiyamət gününün qorxusu kimi məsələlərdən də əmin edəndir.

Həşr 59:23

## 16. əl-Muheymin (الْمُهَيْمِنُ)

O, hər şeyi öz idarəsi altına alan, onları qoruyan, onlara şahid olan və onları hər tərəfdən əhatə edəndir.

Həşr 59:23

## 17. əl-Aziiz (الْعَزِيزُ)

O, qüvvət sahibi, heç vaxt məğlub olmayıb daim qalib olandır. O, cəlalı və şəni uca olandır. Hər bir zəlillikdən uzaqdır (salamatdır). Əziz, Pak və Uca olan Allaha olan itaətinin miqdarında, qula izzət və ucalıq nəsib olur.

Bəqərə 2:129, Ali İmran 3:6, Nisə 4:158,
Tövbə 9:40, Fəth 48:7, Həşr 59:23

## 18. əl-Cabbəər (الْجَبَّارُ)

O, hər kəsdə və hər şeydə Öz istəyini icbari olaraq və öz qəhri altına almaqla, həyata keçirən Əzəmətli Allahdır. O, istədikdə yoxsula zənginliyi, xəstəyə sağlamlığı, möhtaca öz ətasını və çətinlikdə olana isə çətinlikdən çıxarmasını vacib edir.

Həşr 59:23

## 19. əl-Mutəkəbbir (الْمُتَكَبِّرُ)

O, əzəmətlidir və hər bir pislik və nöqsandan əzəməti ilə uzaq olandır. O, həmçinin, qullarına zülm etməkdən uca, uzaq olandır. Yaratdıqlarından üsyankar qullarını öz qəhri* altına alandır. O böyüklüyü (kibri), ucalığı ilə vəsf olunandır. Kim onunla bu məsələdə qarşı-qarşıya gələrsə, onu məhv edər (həlak edər) və onu əzaba düçar edər.

Həşr 59:23

## 20. əl-Kəbiir (الْكَبِيرُ)

O, zatı, sifətləri və felləri ilə əzəmətli olandır. Ondan böyük və əzəmətli heç bir şey yoxdur. Əksinə, Ondan başqa hər bir şey, Allahın cah-cəlalının yanında çox kiçikdir.

Rad 13:9, Rad 13:9, Həcc 22:62, Loğman 31:30

## 21. əl-Mutəaalii (الْمُتَعَالِي)

Hər bir şey Onun ucalığının qarşısında zəlildir. Ondan üstdə heç bir şey yoxdur. Əksinə hər bir şey onun qəhrinin* və səltənətinin altındadır.

Rad 13:9

* Qəhr məcburi olaraq öz idarəsi altına almağa deyilir.

## 22. ər-Rabb (الرَّبُّ)

O öz yaratdıqlarını nemətləri ilə bəsləyib tərbiyə edəndir. Onları bir haldan digər hala salmaqla inşa edəndir. O, öz dostlarının, qullarının qəlblərini islah edəcək şeylərlə tərbiyə edəndir. O, yaradan, hökmdar və uca məqamı olandır.

Səhih Muslim 479

## 23. əl-Aziim (الْعَظِيمُ)

O, zatında, ad və sifətlərində mütləq (qeydsiz) əzəmət sahibi olandır. Ona görə də yaratdıqlarına, Onu əzəmətli və uca tutmaq, əmr və qadağalarını gözlərində böyük görmək vacib olunmuşdur.

Bəqərə 2:255 (Ayət əl-kursi), Şura 42:4, Vaqiə 56:96

## 24. əl-Muqtədir (الْمُقْتَدِرُ)

Bu ad, Uca Allahın qüdrətinin əzəmətli olmasına mübaliğə (ən geniş və ən güclü məna) ilə işarət edən bir addır.

Qamər 54:55

## 25. əl-Qadiir (الْقَدِيرُ)

Qadir olan mənasındadır, lakin bu ad Allahın tərifi üçün daha geniş və bəlağətli mənanı əhatə edir.

Rum 30:54

## 26. əl-Qaadir (الْقَادِرُ)

O, hər bir şeyə qadir olandır. Səmada və yerdə heç bir şeyin Ona qüdrəti çatmaz. İstədiyi heç bir mətləb ondan vaz keçə bilməz, çünki O hər şeyi təqdir (əvvəlcədən hər şeyi qədərdə yazandır) edəndir.

Ənam 6:65, Mursəlat 77:23

## 27. əl-Xalləəq (الْخَلَّاقُ)

Bu ad, Pak və Uca olan Allahın yaratdıqlarının çoxluğuna və çox yaratmasına dəlalət edir. Pak və Uca olan Allah bu əzəmətli vəsfi üzrə daim yaratmışdır və yaratmaqda da davam edir.

Hicr 15:86

## 28. əl-Xaaliq (الْخَالِقُ)

Əvvəllər bənzəri görünməmiş tərzdə, yaratdıqlarının hamısını yoxdan yaradandır.

Maidə 6:102, Rad 13:16, Zumər 39:62,
Ğafir 40:62, Həşr 59:24

## 29. əl-Bəəri (الْبَارِئُ)

Məxluqatı (qədərdə) təqdir etdiyi üzrə mövcud edən və yoxdan var edəndir.

Həşr 59:24

## 30. əl-Musavvir (الْمُصَوِّرُ)

**Hikmətinin, elminin və rəhmətinin tələb etdiyi kimi, yaratdıqlarını istədiyi surətdə yaradandır.**

Həşr 59:24

## 31. əl-Əvvəl (الْأَوَّلُ)

**Ondan qabaq heç nə olmamışdır, hətta bütün yaratdıqları, O yaratdıqdan sonra üzə çıxmışdır. Pak və Uca olan Allaha gəlincə, Onun mövcudluğunun başlanğıcı yoxdur (O Əvvəldir).**

Hədid 57:3

## 32. əl-Əəxir (الْآخِرُ)

**Ondan sonra heç bir şey yoxdur. O daim qalandır. Yer üzərində olan hər bir şey bitəcəkdir, sonra Pak və Uca olan Allaha qayıdacaqdır. Uca Allahın mövcudluğunun sonu yoxdur.**

Hədid 57:3

## 33. əz-Zaahir (الظَّاهِرُ)

**O, hər bir şeydən üstdə olandır və Ondan üstdə (uca) heç bir şey yoxdur. O, hər bir şeyi Öz idarəsi altına almış və hər bir şeyi əhatə etmişdir.**

Hədid 57:3

## 34. əl-Baatin (الْبَاطِنُ)

**Ondan yaxında heç nə yoxdur. İstədiyi şeyə Ondan yaxın birisi ola bilməz. O bütün sirrləri və gizlinləri müşahidə edəndir.**

Hədid 57:3

## 35. əs-Səmii' (السَّمِيعُ)

**O, eşitməsi ilə hər bir sirri və gizlin danışıqları, hər bir açıq-aşkar deyilən və elan olunan şeyləri əhatə edəndir. Hətta, dəqiqliyindən (incəliyindən) və böyük olmasından asılı olmayaraq, bütün səsləri eşidən və dua edənin duasını eşidib cavab verəndir.**

Bəqərə 2:127/225, Ali İmran 3:38, Ənfal 8:17, Hucurat 49:1

## 36. əl-Bəsiir (الْبَصِيرُ)

**Gizli və ya aşkar, incə və ya böyük olmasından asılı olmayaraq, O görməsi ilə qeyb və müşahidə olunan aləmdə hər bir şeyi əhatə edəndir.**

Nisə 4:58, İsra 17:1, Şura 42:11/27

## 37. əl-Afuvv (الْعَفُوُّ)

**O, günahları silən və onların üzərindən keçəndir (bağışlayandır). O günah sahibini cəzaya layiq olduğu halda cəzalandırmır.**

Nisə 4:149

## 38. əl-Ğafuur (الْغَفُورُ)

O, günah edənin günahını gizlədən, başqalarının yanında günahını açaraq rüsvay etməyən və günaha görə dərhal cəzalandırmayandır.

Bəqərə 2:173/218, Ənfal 8:69, Nəhl 16:110, Fussilət 41:32

## 39. əl-Ğaffəər (الْغَفَّارُ)

Pak və Uca olan Allahın, günah edən və bağışlanma diləyən (istiğfar edən) quluna məğfirətinin çoxluğuna dəlalət edən bir addır.

Ta ha 20:82, Sad 38:66, Zumər 39:5, Ğafir 40:42, Nuh 71:10

## 40. əs-Sittiir (السِّتِّيرُ)

O, qulunun günahını örtən və buna görə xalq arasında rüsvay etməyəndir. Qulun özünün və başqalarının günah və eyblərini gizlətməsini sevir.

Sunən Əbu Davud, 4012

## 41. əl-Həliim (الْحَلِيمُ)

Aqibətlə yaxalamağına qadir olmasına baxmayaraq, O, qulunun aqibətini tələsdirməyən, əksinə qul istiğfar dilədikdə onu əfv edən və bağışlayandır.

Bəqərə 2:235, İsra 17:44, Həcc 22:59, Fatir 35:41

## 42. əl-Lətiif (اللَّطِيفُ)

Pak və Uca olan Allahın işləri dəqiqlikləri ilə bilməsinə dəlalət edən bir addır. Ona heç bir məsələ gizli qalmır. O, qullarına güman etməyəcəkləri bir yerdən xeyiri və mənfəəti, onlara gizli qalacaq tərzdə olsa belə çatdırandır. Həmçinin, qulları Onu bu dünyada görmür və onlara gizli qalır, Onu ancaq naim cənnətlərində və qiyamət günü görəcəklər.

Ənam 6:103, Həcc 22:63, Loğman 31:16, Əhzab 33:34

## 43. əl-Cəmiil (الْجَمِيلُ)

O, Öz zatında, ad və sifətlərində və fellərində mütləq şəkildə gözəl olandır. Yaratdıqlarında olan bütün gözəlliklər Pak və Uca olan Allah tərəfindən və Onun lütfündəndir.

Səhih Muslim 91

## 44/45. əl-Aliyy/əl-Əa'lə (الْعَلِيُّ و الأَعْلَى)

O, şəni, sultanı (qəhri) və zatı uca olandır. (Şənində ucalıq, qəhrində ucalıq və zatında ucalıq Ona məxsusdur). Hər bir şey onun qəhrinin və səltənətinin altındadır. Ondan yuxarıda heç bir şey yoxdur.

Bəqərə 2:255 (Ayət əl-kursi), Nisə 4:34,
Loğman 31:30, Şura 42:4/51

## 46. əl-Vitr (الْوِتْرُ)

O, tək (vahid) olan və heç bir şəriki olmayandır.

Səhih Buxari 6410, Muslim 2677

## 47/48. əl-Vaahid/əl-Əhəd(الْوَاحِدُ و الْاَحَدُ)

Bütün sonsuz (mütləq) kamilliklərində tək olandır, Onun burada heç bir şəriki yoxdur və Onun bənzəri yoxdur. Bu da Ona tək olaraq, şərik qoşmadan ibadətdə tövhidi (təkləşdirməyi) vacib edir.

Ğafir 40:16

## 49. əs-Saməd (الصَّمَدُ)

O, uca məqam sahibidir (seyyiddir) və bunda kamildir. Bütün yaratdıqları ehtiyaclarına görə Ona yönəlmişdir və onlar Allaha olan əzəmətli fəqirliklərinə görə ehtiyaclarında Ona üz tutmuşlar. Çünki yedirdən Odur, yedirilməyə ehtiyacı yoxdur.

İxlas 112:2

## 50. əs-Seyyid (السَّيِدُ)

Yaratdıqları üzərində mütləq ağalıq (hüdudsuz hökmranlıq) Ona məxsusdur və yaratdıqlarının sultanı, Rəbbidir. Onlar, Onun yaratdıqları və qullarıdırlar.

Sunən Əbu Davud 4806, Musnəd Əhməd 4/24-25

## 51/52. əl-Qaahir/əl-Qahhəər (الْقَاهِرُ و الْقَهَّارُ)

Qullarını qarşısında zəlil edən, yaratdıqlarının Ona qul olmasını tələb edən və nail olandır. O, qullarının üzərində olandır. O, elə bir qalibdir ki, boyunlar Onun qarşısında əyilmiş, üzlər Onun qarşısında yazıq (zəlil) görkəm almışdır. əl-Qahhər, əl-Qaahir adının mənaca daha şiddətli (mübaliğə) formasıdır.

Ənam 6:18, Rad 13:16, İbrahim 14:48
Sad 38:65, Zumər 39:4, Ğafir 40:16

## 53. əl-Haqq (الْحَقُّ)

O, olması və mövcudluğu haqq (doğru) olandır. Onun mövcudluğu vacib olan və sifətləri kamil olandır. Ondan başqa heç bir kəs haqqı ilə ibadət oluna bilməz. Ondan başqa bütün məbudlar batildirlər. Buna görə də Onun sözü, Onun felləri və Onun vədi haqqdır.

Həcc 22:62

## 54. əl-Mubiin (الْمُبِينُ)

Onun işi (əmri), tək olmasında, hikmətində və rəhmətində açıq-aydın olandır. O, izləsinlər deyə uğur yollarını və çəkinsinlər deyə azma yollarını qullarına açıq-aydın izah edəndir.

Nur 24:25

## 55. əl-Qaviyy (الْقَوِيُّ)

O, hüdudsuz qüvvət və qüdrət sahibidir. Ona heç kim qalib gələ bilməz və Onun işini heç kim geri qaytara bilməz. Yerdə və səmalarda heç bir şeyin Ona qüdrəti çatmaz.

Şura 42:19

## 56. əl-Mətiin (الْمَتِينُ)

Onun qüdrəti və qüvvəti şiddətlidir. Ona işlərində və fellərində heç bir məşəqqət (çətinlik) və yorğunluq üz vermir.

Zəriyət 51:58

## 57. əl-Həyyiy (الْحَيِيُّ)

Uca üzünə və əzəmətli səltənətinə layiq olan (yaraşan, uyğun) həya Ona aiddir. Pak və Uca olan Allahın həyası nəciblik, yaxşılıq, səxavət və möhtəşəmlik həyasıdır.

Sunən Əbu Davud 4012, Sunən Nəsəi 406,
Musnəd Əhməd, 4/224 və Tirmizi

## 58. əl-Həyy (الْحَيُّ)

Daimi olan həyat, əvvəli və sonu olmayan əbədilik ona aiddir. Mövcud olan bütün həyatlar Pak və Uca olan Allah tərəfindən və Onun lütfündəndir.

Bəqərə 2:255 (Ayət əl-kursi)

## 59. əl-Qayyuum (الْقَيُّومُ)

O, ehtiyacsız olandır, yaratdıqlarından heç birinə də ehtiyacı yoxdur. O göylərdə və yerdə olan hər bir şeyi təmin edəndir, onlar Pak və Uca olan Allaha möhtacdırlar.

Bəqərə 2:255 (Ayət əl-kursi)

## 60. əş-Şəəkir/əş-Şəkuur (الشَّاكِرُ و الشَّكُورُ)

O, saleh əməli kiçik olmasına baxmayaraq qəbul edir və ona görə mükafatlandırır. Hətta, onun mükafatını qat-qat artırır. Həmçinin etdiyi əmələ görə quluna olan nemətini və tərifini artırır. Əş-Şəkuur bu adın mənaca daha qüvvətli (mübaliğə) formasıdır.

Nisə 4:147, Fətir 35:30, 34, Şura 42:23, Təğabun 64:17

## 61. əl-Fəttəəh (الْفَتَّاحُ)

Hikmətinin və elminin tələbi üzrə quluna Öz mülkünün, rəhmətinin və ruzisinin xəzinələrindən istədiyi qədər açır.

Səba 34:26

## 62. əl-Aliim (اَلْعَلِيمُ)

O, elmi ilə həm zahiri, həm batini, həm gizlini, həm aşkarı, həm keçmişi, həm indini, həm də gələcəyi əhatə etmişdir və Ona heç bir şey gizli qalmır.

Bəqərə 2:29, 158, Ali İmran 3:92, Nisə 4:35
Nur 24:41, Əhzab 33:40, İnsan 76:30

## 63. əl-Həkiim (الْحَكِيمُ)

O, hər şeyi layiq olduğu yerinə qoyur. Onun tədbirinə heç bir boşluq və ya xəta daxil ola bilməz.

Bəqərə 2:129, Ali İmran 3:62

## 64. əl-Həkəm (الْحَكَمُ)

O, öz yaratdıqları arasında ədalətlə hökm verəndir və onlardan heç kimə zülm etmir. O, izzətli kitabını insanlar arasında hökm verilsin deyə yerə endirmişdir.

Sunən Əbu Davud 4955, Sunən Nəsəi 5387

## 65. əl-Xabiir (الْخَبِيرُ)

Onun elmi, hər bir şeyin zahirini əhatə etdiyi kimi, daxilini (içini) də əhatə edir.

Ənam 6:18, isra 17:30, Hucurat 49:13,
Həşr 59:18, Mulk 67:14

## 66. ət-Təvvaab (التَّوَابُ)

**O, quluna qəzəbləndikdən sonra ona Öz rizası ilə qayıdandır, aqibətə (cəzaya) layiq olduqdan sonra ona Öz əfvi ilə qayıdandır. O, qulunu tövbəyə müvəffəq edən və ondan tövbəsini qəbul edəndir.**

**Bəqərə 2:160, Tövbə 9:118**

## 67. əl-Qariib (الْقَرِيبُ)

**O bütün yaratdıqlarına yaxındır, onları əhatə etmişdir və onların hallarını biləndir. O, mömin qullarına Öz köməyi ilə, onların dualarına cavab verməsi ilə və onları qoruması ilə yaxındır.**

**Səbə 34:50**

## 68. əl-Vəduud (الْوَدُودُ)

**O, Allahdan qorxan qullarını (övliyalarını) sevən, onlara Öz məğfirəti və bəxşi ilə Özünü sevdirəndir. Onlar da Onu sevirlər. Pak və Uca olan Allah, sevdiyi qulunun duasına cavab verər, qorxduğu şeylərdən ona sığınacaq verər və onu yer üzərində qəbul edilənlərdən edər. Allahı sevən kəs isə, Ona itaət edib Onun görüşünə can atar.**

**Buruc 85:14**

## 69. əl-Muciib (الْمُجِيبُ)

**O, dua edənin duasına, istəyənin istəyinə Öz elminin və hikmətinin tələb etdiyi kimi cavab verəndir.**

Hud 11:61

## 70. əl-Valiyy (الْوَلِيُّ)

**O, yaratdıqlarının işlərini və mülkünün idarəsini (tədbirini) Öz öhdəsinə götürər, Allahdan qorxan qullarına (övliyalarına) köməkçi və yardımçıdır.**

Şura 42:9, 28

## 71. əl-Mövlaa (الْمَوْلَى)

**O, Özündən qorxan qullarının (övliyalarının) Rəbbi, hökmdarıdır, ağasıdır, köməkçisi və yardımçısıdır.**

Ənfal 8:40

## 72. əl-Həmiid (الْحَمِيدُ)

**O, adlarına, sifətlərinə və fellərinə görə həmd olunandır. O, bolluqda da, qıtlıqda da, şiddətli anda da, rahatlıqda da həmd olunandır. O, hüdudsuz olaraq həmd və sənanı haqq edəndir, çünki hər cür kamillik Onun vəsfidir.**

İbrahim 14:1

## 73. ən-Nəsiir (النَّصِيرُ)

O, Öz köməyi ilə istədiyinə dəstək verəndir. Onun kömək etdiyinə heç kəs qalib gələ bilməz və Onun tərk etdiyinə də heç bir köməkçi olmaz.

Ənfəl 8:40

## 74. əl-Həfiiz (الْحَفِيظُ)

O, Öz qullarını qoruyar ki, onlar Allahın təqdir etdikləri qədər yaşasınlar. O, qullarının xeyir və şər əməllərini unutmadan (əksiksiz) saxlayandır. O, həmçinin, Öz mömin qullarını (övliyalarını) onların imanlarına zərər verə biləcək bütün şübhələrdən, şəhvətlərdən və şeytanın vəsvəsələrindən qoruyandır.

Hud 11:57, Səba 34:21, Şura 42:6

## 75. əl-Məciid (الْمَجِيدُ)

O, gözəl adlarında və uca sifətlərində hədsiz (geniş) olandır. O, əzəməti, kərəmi (ehsanı) və sifətləri hədsiz geniş olandır.

Buruc 85:15

## 76. əş-Şəhiid (الشَّهِيدُ)

O, Öz yaratdıqlarına baxan və nəzarət edəndir. Buna görə də, O, bütün səsləri eşidir və bütün mövcud olan şeyləri görür.

Mucadilə 58:6

## 77/78. əl-Muqaddim/əl-Muaxxir (الْمُقَدِّمُ و الْمُؤَخِّرُ)

O, istəyinin və hikmətinin tələb etdiyi kimi yaratdıqlarından bəzilərini önə, bəzilərini isə arxaya keçirəndir. O, Öz istəyinin, elminin və rəhmətinin tələb etdiyi kimi, yaratdıqlarından bəzilərini fəzilətdə önə, bəzilərini isə geriyə salır.

Səhih Buxari 1120, Muslim 771

## 79. əl-Musa’ir (الْمُسَعِّرُ)

O, əşyaların qiymətini, dərəcəsini və təsirini artırır və ya azaldır. Bununla da, əşyalar Onun hikmətinin və elminin tələb etdiyi kimi bahalaşır və ya ucuzlaşır.

Tirmizi 1314, Əbu Davud 3/272, Əhməd 3/286

## 80/81.əl-Qaabid/əl-Bəəsit (الْقَابِضُ و الْبَاسِطُ)

O, hikməti və qüdrəti ilə ruhları (canlarından çıxardaraq) yanında saxlayır, qullarından istədiklərinin ruzilərini isə (yanında saxlayaraq) onlara vermir. O, həmçinin səxavəti və rəhməti ilə ruzini genişləndirir. Bununla da qullarını, Öz hikmətinin tələb etdiyi kimi imtahan edir. Həmçinin, O günah edən üçün (tövbə etsinlər deyə) tövbə əlini açır.

Bəqərə 2:245, Əbu Davud 3451, İbn Macə 2200

## 82. əl-Mu’tii (الْمُعْطِي)

O, yaratdıqlarından istədiyinə, Öz xəzinələrindən istədiyi qədər verəndir (bəxş edəndir). Onun bəxşini heç kim qaytara bilməz. Onun bəxşindən mömin qulları (övliyaları) üçün böyük bir nəsib vardır. O, həmçinin, hər bir şeyə öz formasını və surətini vermişdir.

Səhih Buxari 7292, Səhih Muslim 471

## 83. əd-Dəyyəən (الدَّيَّانُ)

O, qullarını etdiklərinə uyğun (şərə görə) cəzalandıran və (xeyirə görə) mükafatlandırandır. Əməl xeyir olarsa, onun mükafatını artırar. Şər olarsa, ancaq öz mislində cəza verər və ya onu əfv edər.

Əhməd 15612

## 84. əl-Mənnəən (الْمَنَّانُ)

Bu ad, yaratdıqlarına bəxşinin (ətasının) çoxluğuna, nemət verməsinin əzəmətinə və yaxşılığının (ehsanının) çoxluğuna dəlalət edir.

Sunən Əbu Davud 1495, Sunən Tirmizi 3544

## 85. ər-Raaziq (الرَّازِقُ)

O, göylərdə və yerdə olan, istər saleh, istərsə də günahkar qullarına ruzi verməsini Öz üzərinə götürəndir. Övliyalarını (Ondan qorxan mömin qullarını) qəlblərində olana görə, xüsusi ruzi (rızq) ilə ruziləndirər. Bununla da, onların imanlarını və hikmətlərini artırar, onların bədənlərini halal ruzi ilə bəsləyər.

Maidə 5:114, Əbu Davud 3451, Tirmizi 1314,
İbn Macə 2200, Əhməd 12613

## 86. ər-Razzəəq (الرَّزَّاقُ)

Bu ad, yaratdıqlarına olan ruzisinin çoxluğuna dəlalət edən addır. Pak və nöqsansız olan Allah, qulların Ondan istəməsindən əvvəl onları ruziləndirir. Hətta, Ona asilik etmələrinə baxmayaraq onları ruziləndirir (ruzilərini kəsmir).

Zəriyət 51:58

## 87. ər-Raqiib (الرَّقِيبُ)

O, yaratdıqlarını müşahidə edəndir. O, qullarının əməllərini tək-tək sayandır. Baxanın gözünü çevirməsi və xəyal edənin ağlına bir şeyi sürətlə gətirməsi Ondan yan keçmir.

Əhzəb 33:52

## 88. əl-Vəkiil (الْوَكِيلُ)

**O, Öz kainat işlərinin (yaradılan hər bir şeyin) idarəsində (tədbirində) və o işlərin icrasında (təsərrüfatında) tək durandır (yerinə yetirəndir). Ona sığınana kafi olan (bəs edən) və Ondan qorunmaq istəyəni qoruyandır (Qoruyan olaraq Allah yetər).**

Ali İmran 3:173, Nisə 4:81

## 89. əl-Muhsin (الْمُحْسِنُ)

**O, yaratdığı hər bir şeyi gözəl biçimdə yaradan və mükəmməl edəndir. Həmçinin, Öz yaratdıqlarına əzəmətli nemətləri və ehsanı ilə yaxşılıq edəndir.**

Təbərani (Əvsat), Məcmu əl-Fətəva - 1/379,
Musannəf Abdurrazzəq - 4-cü cild, səh. 492, hədis 8603

## 90. əl-Həsiib (الْحَسِيبُ)

**O, qullarını maraqlandıran din və dünya işlərinin hamısında onlar üçün kifayət olandır (Ondan başqasına ehtiyac yoxdur). Möminlərin, Onun bu kafiliyindən böyük nəsibləri vardır. O, həmçinin, qullarını etdiklərinə görə cəzalandıran və mükafatlandırandır.**

Nisə 4:6/86, Əhzab 33:39

## 91. əş-Şəəfii (الشَّافِي)

O, qəlbləri və bədənləri xəstəliklərdən şəfa edəndir. Qulların əlində Allahın asanlaşdırdığı (müyəssər elədiyi) dəvalaradan başqa heç bir şey yoxdur. Şəfaya gəlincə, şəfa yalnız Onun əlindədir və Onun şəriki yoxdur. Ondan başqa şəfa verən yoxdur, Onun şəfasından başqa şəfa yoxdur.

Səhih Buxari 5742, Muslim 2191

## 92. ər-Rafiiq (الرَّفِيقُ)

Yaratdıqlarını bir dəfəyə yaratmaq iqtidarında olmasına baxmayaraq, onları mərhələ ilə (dərəcə-dərəcə) yaradandır (haldan hala keçirəndir). O, qulları ilə yumşaq və mülayim şəkildə müamilə edəndir. Buna görə də, onları taqətlərindən artıq yükləməz. O, bütün xəta və nöqsanlardan uzaq olandır və Öz qullarından da yumşaq olanları sevəndir. Sərtliyə görə vermədiyini yumşaqlığa görə verəndir.

Sunən Nəsai 5, Sunən İbn Macə 289, Əhməd, 1/3, 2/108.

## 93. əs-Subbuuh (السُّبُّوحُ)

O, bütün eyib və nöqsanlardan uzaq olandır. Çünki, hədsiz kamillik və gözəllik sifətləri Ona aiddir.

Səhih Muslim 487.

## 94. əl-Muqiit (الْمُقِيتُ)

O, yaratdıqlarını doyuran, onların qida və ərzaqlarını yaradandır. Bunları da, qullarına çatdırmağı Öz üzərinə götürəndir. O həm bunları, həm də qulların əməllərini, nöqsansız olaraq qoruyandır.

Nisə 4:85

## 95. ət-Tayyib (الطَّيِّبُ)

O, bütün eyib və nöqsanlardan təmiz və salamat olandır. Sonsuz gözəllik və kamillik Ona aiddir və O yaratdıqlarına çoxlu xeyir verəndir. O, bütün xəta və nöqsanlardan uzaqdır. Qullarının əməl və sədəqələrindən ancaq təmiz, halal və Onun üçün xalis olanları qəbul edir.

Səhih Muslim 1015

## 96. əl-Vaaris (الْوَارِثُ)

O, yaratdığı hər bir şey yox olduqdan sonra qalandır. Hər bir şey sahibi yox olduqdan sonra, Ona qayıdır. Əlimizdə olan hər bir şey əmanətdir və bir gün sahibi olan Uca Allaha qayıdacaqdır.

Hicr 15:23

## 97. əl-Həədi (الْهَادِي)

O, bütün qullarını hidayətə, doğru yola yönəldəndir. Onların məsləhətləri, ruzilərinin qazanılması və onlara ziyan verən şeylərin dəf olunmasında onları doğru yola yönəldəndir (hidayət verəndir). O, mükəlləf qullarına xeyiri və şəri, qurtuluş və həlak olma yollarını göstərəndir. O, hikmətinin və rəhmətinin tələb etdiyi kimi qullarını, müvəffəqiyyət və elm (ilham) hidayətinə yönəldəndir.

Əraf 7:43, Qasas 28:56, Furqan 25:31
Muslim 2577, Muslim 2696

## 98. əl-Bərr (الْبَرُّ)

O, yaratdıqlarına yaxşılığı (ehsanı) geniş olandır. O bəxş edir və Onun nemətini saymağı heç kəs bacarmaz. O, Öz vədində sadiq olandır.

Tur 52:28

## 99. əl-Muhiit (الْمُحِيطُ)

O, bütün yaratdıqlarını, Öz elmi və qüdrəti ilə əhatə edəndir. Onların hallarından Ona heç bir şey gizli qalmır. Hər bir şey Onun əlindədir və Onun hökmranlığı altındadır.

Nisə 4:126

١. **اللَّهُ** - هو الاسم الذي يتضمن جميع معاني الأسماء و الصفات. و ترجع اليه في الإسناد، و لا يستحق العبادة أحد سواه

٢. **الرَّحْمَانُ** - اسم دال على سعة رحمته و شمولها لجميع المخلوقات و هو اسم يختص بالله تعالى. و لا يجوز اطلاقه على غيره

٣. **الرَّحِيمُ** - هو الذي له الرحمة الواسعة بعباده، و المؤمنون و المحسنون و الرحماء أسعد بها

٤. **الرَّؤُوفُ** - هو كامل الرأفة, و الرأفة هي أبلغ الرحمة. و من رأف بعباد الله رأف ألله به

٥. **الْغَنِيُّ** - هو الذي لا يحتاج إلى أحد من خلقه, و ذلك لكمال صفاته، و الخلق كلهم فقراء إليه

٦. **الْكَرِيمُ** - اسم دال على كثرة خيره و عظيم نفعه و عطائه، و هو كريم يحب الكرم

٧. **الْأَكْرَمُ** - هو الأفضل في الكرم من كل كريم، و لا مثيل له في ذلك أبداً. فأن الخير كله بيديه، و الخير كله منه سبحانه و تعالى

٨. **الْوَهَّابُ** - هو الكثير المواهب لخلقه فضلا منه و إحسانا

٩. **الْجَوَادُ** - هو كثير العطايا و التفضل على خلقه

١٠. **الْوَاسِعُ** - اسم دال على سعة عظمته و علمه و رحمته و سائر صفات كماله

١١. **الْمَلِكُ** - الذي له ملك السماوات و الأرض و من فيهن و هو المدبر لأمر العالم كله بمشيئته و حكمته

١٢. **الْمَلِيكُ** - اسم دال على عظيم ملك الله تعالى، فهو أبلغ من الملك

١٣. **الْقُدُّوسُ** - هو المنزه عن كل نقص و عيب بأي وجه من الوجوه، و ذلك لأنه المنفرد بأوصاف الكمال المطلق

١٤. **السَّلاَمُ** - هو السالم من كل نقص عيب، في ذاته، و في صفاته و أسمائه و أفعاله. و كل سلام في الدنيا و الآخرة فهو منه سبحانه و تعالى

١٥. **الْمُؤْمِنُ** - هو الامصدِّق للرسل و أتباعهم بشهادته لهم بالصدق، بما يقيمه من البراهين على صدقهم، و كل أمن في الدنيا و الآخرة فهو واهبه. و هو المُؤَمِّن للمؤمنين به من أن يظلمهم أو يعذِّبهم أو يصيبهم بفزع يوم القيامة

١٦. **الْمُهَيْمِنُ** - هو القائم على الشيء و الحافظ له و الشاهد عليه و المحيط به

١٧. **الْعَزِيزُ** - هو القوي الغالب الذي لا يُهزم، و هو الجليل الرفيع الشأن السالم من الذل، و للعبد من العزّة و الرفعة بقدر طاعته للعزيز سبحانه و تعالى.

١٨. **الْجَبَّارُ** - هو العظيم الذي يُنفذ مشيئته على سبيل الإجبار و القهر في كل أحد. و هو الذي يجبر الفقير بالغنى و المريض بالصحة و المحتاج بالعطاء و المضطر بالفرج

١٩. **الْمُتَكَبِّرُ** - هو العظيم المتعاظم عن كل سوء و نقص، و المتعالي عن ظلم عباده، القاهر لعتاة خلقه، و هو المتصف بالكبرياء، و من نازعه في ذلك قصمه و عذّبه

٢٠. **الْكَبِيرُ** - هو العظيم في ذاته و أوصافه و أفعاله، و ليس شيء أعظم منه، بل كلّ ما سواه صغير في جنب جلاله عز و جل

٢١. **الْمُتَعَالِي** - هو الذي ذلّ أمام عُلُوِّه كل شيء، و ليس فوقه شيء، بل كل شيء تحت قهره و سلطانه

٢٢. **الرَّبُّ** - هو الذي يربّي خلقه بنعمه و ينشئهم شيئاً فشيئاً، و هو الذي يربّي أولياءه بما يُصلِح قلوبهم، و هو الخالق المالك السيّد

٢٣. الْعَظِيمُ - هو الذي له العظمة المطلقة في ذاته و أسمائه، وصفاته، و لذالك وجب على الخلق أن يعظموه و يجلّوه، و أن يعظموا أمره و نهيه

٢٤. الْمُقْتَدِرُ - اسم يدل على المبالغة في عظيم قدرة الله تعالى

٢٥. الْقَدِيرُ - هو بمعنى القادر إلا أن القدير أبلغ في المدح لله تعالى

٢٦. الْقَادِرُ - هو القادر على كل شيء، فلا يعجزه شيء في الأرض و لا في السماء، و لا يفوته مطلوب، و هو المقدّر لكل شيء

٢٧. الْخَلَّاقُ - اسم يدل على كثرة ما يخلق الله تعالى، فهو سبحانه لم يزل يخلق و لا يزال على هذا الوصف العظيم

٢٨. الْخَالِقُ - هو المبدع لجميع الخلق على غير مثال سابق

٢٩. الْبَارِئُ - هو الذي أوجد ما قدره من المخلوقات و أخرجها إلى الوجود

٣٠. الْمُصَوِّرُ - هو الذي عل خلقه على الصور التي شاءها لهم بمقتضى حكمته و علمه و رحمته

٣١. الْأَوَّلُ - هو الذي لم يكن شيء قبله، بل كل المخلوقات أنما حدثت بخلقه سبحانه لها، و أما هو سبحانه فلا ابتداء لوجوده

٣٢. الْآخِرُ - هو الذي ليس بعده شيء، فهو الباقي، و كل من على الأرض فانٍ ثم مرجعهم إليه، و لا انتهاء لوجوده عز و جل

٣٣. الظَّاهِرُ - هو العالي فوق كل شيء فلا شيء أعلى منه، و هو القاهر لكل شيء و المحيط به

٣٤. الْبَاطِنُ - هو الذي ليس دونه شيء. فلا شيء أقرب إلى شيء منه، و هو المطلع على كل السرائر و الخفايا

٣٥. السَّمِيعُ - هو الذي أحاط سمعه بكل سر و نجوى، و كل جهر و إعلان. بل بكل الأصوات مهما دقّت أو عظمت، و هو المجيب لمن دعاه

٣٦. **الْبَصِيرُ** - هو الذي أحاط بصره بجميع الوجودات في عالم الغيب و الشهادة، مهما خفيت أو ظهرت، و مهما دقت أو عظمت

٣٧. **الْعَفُوُّ** - هو الذي يمحو الذنب و يتجاوز عنه و لا يعاقب عليه مع استحقاق العبد للعقاب

٣٨. **الْغَفُورُ** - هو الذي يستر الذنب على صاحبه و لا يفضحه و لا يعاقبه عليه

٣٩. **الْغَفَّارُ** - اسم دال على كثرة مغفرة الله لعبده المذنب المستغفر

٤٠. **السِّتِّيرُ** - هو الذي يستر على عبده، فلا يفضحه بين خلقه، و هو المحب من عبده أن يستر على نفسه و على غيره

٤١. **الْحَلِيمُ** - هو الذي لا يُعَجِّل العقوبة على عباده مع قدرته على عقابهم، بل يصفح عنهم و يغفر لهم إذا استغفروه

٤٢. **اللَّطِيفُ** - اسم دال على علم الله بدقائق الأمور، و أنه لا تخفى عليه خافية، و أنه يوصل الخير و النفع إلى عباده من وجوه خفيّة من حيث لم يحتسبوا، و هو كذالك خفيّ عن خلقه في الدنيا فلا يرونه الّا في جنات النعيم يوم القيامة

٤٣. **الْجَمِيلُ** - هو الجميل في ذاته و أسمائه و صفاته و أفعاله جمالاً مطلقاً، و كل جمالٍ في خلقه فهو منه سبحانه و تعالى

٤٤- ٤٥. **الْعَلِيُّ و الْأَعْلَى** - هو الذي له علو الشأن و علو القهر و علو الذات. و كل شيء تحت قهره و سلطانه، و لا شيء فوقه أبداً

٤٦. **الْوِتْرُ** - هو الواحد الذي لا شريك له

٤٧- ٤٨. **الْوَاحِدُ و الْاَحَدُ** - هو الذي توحد و تفرد بجميع الكمالات المطلقة لا يشاركه فيها مشارك، ليس كمثله شيء. و هو يستوجب توحيد العيادة له وحده لا شريك له

٤٩. **الصَّمَدُ** - هو السيد الذي كَمُل في سؤدده، و هو الذي تصمد إليه الخلائق و تقصده في حوائجها كلّها لعظيم افتقارهم إليه، فهو الذي يُطعِم و لا يُطعَم

٥٠. **السَّيِدُ** - هو الذي له السيادة المطلقة على خلقه فهو مالكهم و ربّهم، و هم خلقه و عبيده

٥١ - ٥٢. **الْقَاهِرُ و الْقَهَّارُ** - هو الذي يمحو الذنب و يتجاوز عنه و لا يعاقب عليه مع استحقاق العبد للعقاب

٥٣. **الْحَقُّ** - هو المتحقق كونه و وجوده، فهو واجب الوجود و كامل الصفات، فلا يعبد بحقّ إلا هو، و كل معبود من دونه فهو باطل، ولذا فقوله حق، و فعله حق و وعده حق

٥٤. **الْمُبِينُ** - هو البيّن أمره في وحد انيته و حكمته و رحمته، و هو الموضح لعباده سبيل الرشاد ليتبعوه، و سُبُلَ الغواية ليحذروها

٥٥. **الْقَوِيُّ** - هو الذي له القوّة و القدرة المطلقة: فلا يغلبه غالب و لا يرد قضاءه راد، و لا يعجزه شيء في الأرض و لا في السماء

٥٦. **الْمَتِينُ** - هو الشديد في قوته و قدرته. و لا يلحقه في أفعاله مشقة و لا كلفة لا تعب

٥٧. **الْحَيِيُّ** - هو الذي له الحياء الذي يليق بجلال وجهه و عظيم سلطانه، فحياء الله حياء كرم و بر و جود و جلال

٥٨. **الْحَيُّ** - هو الذي له الحياة الدائمة، و البقاء الذي لا أول له لا آخر، و كل حياة في الوجود فإنما هي منه سبحانه و تعالى

٥٩. **الْقَيُّومُ** - هو القائم بنفسه. المستغني عن خلقه، و هو المقيم لكل من في السموات و الأرض فهم المفتقرون إليه

٦٠. **الشَّاكِرُ و الشَّكُورُ** - هو الذي يقبل العمل الصالح مهما قل و يثيب عليه، بل و يضاعف الجزاء عليه، و يزيد من نعمته لعبده، و ثنائه عليه. و الشكور أبلغ في ذالك

٦١. **الْفَتَّاحُ** - هو الذي يفتح من خزاءن ملكه و رحمته و رزقه ما يشاء على ما اقتضته حكمته و علمه

٦٢. اَلْعَلِيمُ - هو الذي أحاط علمه بالظواهر و البواطن و الإسرار و الإعلان، و الماضي و الحاضر و المستقبل. فلا يخفي عليه شيء من الأشياء

٦٣. الْحَكِيمُ - هو الذي يضع الأشياء في مواضعها و لا يدخل تدبيره خلل و لا زلل

٦٤. الْحَكَمُ - هو الذي يحكم بين خلقه بالعدل، فلا يظلم أحدا منهم، و هو الذي أنزل كتابه العزيز ليكون حكما بين الناس

٦٥. الْخَبِيرُ - هو الذي أحاط علمه ببواطن الأشياء و خفاياها كما أحاط بظواهرها

٦٦. التَّوَابُ - هو الذي يعود على عبده بالرضا بعد أن غضب عليه، و بالعفو عنه بعد أن عاقبه أو استحق العقاب، و هو الذي يوفق عبده للتوبة و يقبلها منه

٦٧. الْقَرِيبُ - هو القريب من جميع خلقه، فهو المحيط بهم و العليم بحالهم، و هو القريب من المؤمنين بنصره لهم و إجابة دعائهم و حفظهم

٦٨. الْوَدُودُ - هو الحبيب الذي يحب أولياءه و يتودد إليهم بالمغفرة و العطاء، و هم يحبونه. فمن أحبه الله تعالى أجاب دعاءه و أعاذه مما يخافه و بعث له القبول في الأرض، و من أحب الله تعالى أطاعه و اشتاق للقائه

٦٩. الْمُجِيبُ - هو الذي يجيب دعوة الداعين و سؤال السائلين على ما يقتضيه علمه و حكمته

٧٠. الْوَلِيُّ - هو القائم على أمور خلقه و تدبير ملكه و هو النصير و الظهير لأوليائه

٧١. الْمَوْلَى - هو الرب و الملك و السيد و الناصر و المعين لأوليائه

٧٢. الْحَمِيدُ - هو المحمود على أسمائه و صفاته و أفعاله، و هو الذي يحمد في السراء و الضراء و في الشدة و الرخاء، و هو المستحق للحمد و الثناء على الاطلاق لأنه الموصوف بكل كمال

٧٣. **النَّصِيرُ** - هو الذي يؤيد بنصره من يشاء، فلا غالب لمن نصره و لا ناصر لمن خذله

٧٤. **الْحَفِيظُ** - هو الذي حفظ خلقه ليعيشوا على حسب ما قدره لهم، و هو الحفيظ على عباده ما عملوه من خير و شر، و هو الحفيظ لأوليائه عن كل ما يضر بإيمانهم من الشبهات و الشهوات و وساوس الشياطين

٧٥. **الْمَجِيدُ** - هو الواسع فيما له من الأسماء الحسنى و الصفات العليا، فهو واسع قي عظمته و كرمه و جميع أوصافه

٧٦. **الشَّهِيدُ** - هو المطلع على جميع خلقه، فيسمع جميع الأصوات و يبصر جميع الموجودات

٧٧- ٧٨ . **الْمُقَدِّمُ و الْمُوَخِّرُ** - هو الذي يُقَدِّم بعض مخلوقاته في خلقها و يؤخر بعضها على ما تقتضيه مشيئته و حكمته، و هو الذي يُقَدِّم بعض خلقه في الفضل و يؤخر بعضهم على ما تقتضيه مشيئته و علمه و رحمته

٧٩. **الْمُسَعِّرُ** - هو الذي يزيد من قيمة الأشياء و مكانتها و تأثيرها أو ينقصها فتغلى الأشياء أو ترخص على ما تقتضيه حكمته و علمه

٨٠-٨١ . **الْقَابِضُ و الْبَاسِطُ** - هو الذي يقبض الأرواح، و يمسك الأرزاق عن من شاء من خلقه بحكمته و قدرته و هو الذي يوسع الرزق لعباده بجوده و رحمته، فيبتليهم بذلك على ما تقتضيه حكمته، و يبسط يديه بالتوبة لمن أساء

٨٢. **الْمُعْطِي** - هو الذي يعطي ما شاء من خزائنه لمن شاء من خلقه، و لا راد لعطائه، و لأوليائه النصيب الأوفر من عطائه، و هو الذي أعطى كل شيء خَلْقَهُ و صُورَتَه

٨٣. **الدَّيَّانُ** - هو المجازي عباده على ما فعلوه، فإن كان خيراً ضاعفه، و إن كان شراً عاقب عليه أوعفا عنه

٨٤. **الْمَنَّانُ** - اسم دال على كثرة عطائه، و عظيم إنعامه، و وفرة إحسانه على خلقه

٨٥. **الرَّازِقُ** - هو المتكلف برزق من في السماوات و الأرض بَرّاً كان أوفاجراً، ثم يرزق أولياءه رزقاً خاصاً بقلوبهم فيزيدها إيمانا و حكمة، و يُنمّي أجسادهم بالرزق الحلال

٨٦. **الرَّزَّاقُ** - اسم دال على كثرة رزقه لخلقه، فهو سبحانه يرزقهم قبل أن يسألوه، بل يرزقهم حتى مع معصيتهم له

٨٧. **الرَّقِيبُ** - هو المُطّلع على خلقه، و المحصي على العباد أعمالهم، فلا تفوته لفتة ناظر، و لا فلتة خاطر

٨٨. **الْوَكِيلُ** - هو القائم بتدبيرشؤون الكائنات و تصريف أمورها. و هو الكافي لمن التجأ اليه و الحافظ لمن اعتصم به (و كفى بالله وكيلا)

٨٩. **الْمُحْسِنُ** - هو الذي أحسن و أتقن كل شيء خلقه، و هو الذي أحسن إلى خلقه بعظيم نعمه و إحسانه

٩٠. **الْحَسِيبُ** - هو الكافي لعباده جميع ما أهمهم من أمر دينهم و دنياهم، و للمؤمنين به النصيب الأوفر من كفايته. و هو سبحانه المجازي لهم على ما عملوا

٩١. **الشَّافِي** - هو الذي يشفي القلوب و الأبدان من أمراضها. و ليس في يد العباد الا ما يسّره الله لهم من الدواء، أمّا الشفاء فبيده وحده لا شريك له فلا شافي الا هو و لا شفاء الا شفاؤه

٩٢. **الرَّفِيقُ** - هو المتدرج في الخلق مع قدرته على خلق المخلوقات دفعة واحدة، و هو الذي يعامل عباده بالرفق و اللين فلا يكلفهم ما لا يطيقون و هو سبحانه يحب عبده الرفيق و يعطي على الرفق ما لا يعطي على العنف

٩٣. **السُّبُّوحُ** - هو المنزه عن كل عيب و نقص. لأنه الذي له أوصاف الكمال و الجمال المطلق

٩٤. الْمُقِيتُ - هو الذي خلق الأقوات و الأرزاق و تكفل بإيصالها إلى الخلق، و هو حفيظ عليها و على أعمال العباد بلا نقصان

٩٥. الطَّيِّبُ - هو الطاهر و والسالم من كل عيب و نقص و هو الذي له الحسن و الكمال المطلق و هو كثير الخير على خلقه و لا يقبل سبحانه من الأعمال و الصدقات إلّا ما كان طيّباً حلالاً خالصاً له

٩٦. الْوَارِثُ - هو الباقي بعد فناء الخلق، و جميع الأشياء ترجع إليه بعد فناء أهلها، و كل ما في أيدينا هو أمانة ستعود يوماً إلى مالكها عز و جل

٩٧. الْهَادِي - هو الذي يهدي سائر الخلق إلى مصالحها و كسب رزقها و دفع ما يضرها و هو الذي يدل المكلفين على طريق الخير و الشر و طريق النجاة و الهلاك و هو الذي يهدي هداية التوفيق و الإلهام بمقتضى حكمته و رحمته

٩٨. الْبَرُّ - هو الواسع في إحسانه لخلقه، يعطي فلا يستطيع أحدٌ عدَّ نعمته أو إحصاءها و هو الصادق في وعده

٩٩. الْمُحِيطُ - هو الذي أحاط بكل خلقه علماً و قدرة، فلا يخفى عليه شيء من أحوالهم، و الجميع في قبضته و تحت سلطانه

**Kitabçanın hazırlanmasında istifadə olunan ədəbiyyatlar:**


1. Muhamməd Salih İbn Useyminin “Şərh qavaid əl-muslə” kitabı
2. Xalid ibn Abdullahın “əl-Muxtəsər əl-Mufid fi məani əsməi Allahi əl-Həmid” adlı kitabçası (AbdurRəhman bin Nəsir əl-Barrakın bu mövzuda dərslərindən icmal).